*UOT 373.0*

# TƏHSİLİN KEYFİYYƏTİNİN TƏMİN OLUNMASINDA XARİCİ QİYMƏTLƏNDİRMƏNİN ROLU

**Cəlalə Mahir qızı Abdulmanafova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCID:** 0009-0007-1699-4782
**E-mail:** calala.yahyali@arti.edu.az
http://www.doi.org/10.62706/bqiz.2026.v26.i1.28

***Açar sözlər:*** *təhsildə keyfiyyətin təmin olunması, xarici qiymətləndirmə mexanizmləri, təhsilin keyfiyyəti, monitorinq prosesi, hesabatlılıq sistemi*

***Ключевые слова:*** *обеспечение качества образования, механизмы внешней оценки, качество образования, процесс мониторинга, система подотчетности.*

***Key words:*** *quality assurance in education, external evaluation mechanisms, quality of education, monitoring process, accountability system*

Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət təhsil və peşə standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları, abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir ("Təhsil haqqında" Qanun, 2009).

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası).

Qloballaşma və bilik iqtisadiyyatının sürətlə inkişaf etdiyi müasir dövrdə təhsil sistemlərinin rəqabətqabiliyyətliliyi bilavasitə keyfiyyət təminatı mexanizmlərinin səmərəliliyindən asılıdır. Təhsildə keyfiyyətin təmin olunması yalnız təlim proqramlarının və resursların mövcudluğu ilə deyil, eyni zamanda bu resurslardan istifadənin obyektiv və sistemli qiymətləndirilməsi ilə şərtlənir. Bu kontekstdə xarici qiymətləndirmə təhsildə keyfiyyət təminatı sisteminin əsas struktur elementlərindən biri kimi çıxış edir və təhsil müəssisələrinin fəaliyyətinin müstəqil, şəffaf və etibarlı şəkildə təhlilinə imkan yaradır. Xarici qiymətləndirmə mexanizmləri vasitəsilə təhsil müəssisələrinin dövlət təhsil standartlarına uyğunluğu, təlim nəticələrinin keyfiyyəti, idarəetmə proseslərinin səmərəliliyi və institusional inkişaf potensialı müəyyən edilir. Məhz bu xüsusiyyətlər xarici qiymətləndirməni təhsildə keyfiyyət təminatı sistemində tənzimləyici, analitik və inkişafetdirici rol oynayan əsas alətə çevirir.

Məqalənin əsas məqsədi təhsilin keyfiyyətinin təmin olunmasında xarici qiymətləndirmənin

rolunu elmi-nəzəri və praktik aspektdən araşdırmaq, beynəlxalq təcrübə ilə müqayisədə Azərbaycanda mövcud vəziyyəti təhlil etməkdir.

**Təhsildə keyfiyyət təminatı anlayışının elmi-nəzəri əsasları**

Keyfiyyət anlayışı təhsildə çoxölçülü və mürəkkəb xarakter daşıyır. L. Harvey və D. Green (1993) keyfiyyəti "mükəmməllik", "məqsədəuyğunluq", "dəyər", "dəyişmə" və "standartlara uyğunluq" kimi müxtəlif aspektlərdən izah edirlər. Təhsildə keyfiyyət təminatı isə bu anlayışın sistemli şəkildə idarə olunmasını nəzərdə tutur.

OECD (Organisation for Economic Co-operation and Development) yanaşmasına görə, keyfiyyət təminatı təhsil sistemində təlim nəticələrinin planlaşdırılması, ölçülməsi, təhlili və təkmilləşdirilməsinə yönəlmiş davamlı prosesdir (OECD, 2013). Bu proses iki əsas komponentdən ibarətdir:

- daxili keyfiyyət təminatı;
- xarici keyfiyyət təminatı.

Daxili keyfiyyət təminatı təhsil müəssisəsinin öz daxilində həyata keçirdiyi özünüqiymətləndirmə və monitorinq fəaliyyətlərini əhatə edir. Xarici keyfiyyət təminatı isə müstəqil qurumlar tərəfindən aparılan qiymətləndirmə və nəzarət mexanizmlərini özündə birləşdirir.

Bizim tədqiqat obyektimiz xarici qiymətləndirməyə aid olduğundan məqalədə daha çox kənar qiymətləndirmə mexanizmləri və institusional yanaşmalar araşdırılır.

**Xarici qiymətləndirmənin mahiyyəti və əsas məqsədləri**

Xarici qiymətləndirmə təhsil müəssisələrinin fəaliyyətinin müstəqil ekspertlər və ya dövlət tərəfindən səlahiyyət verilmiş qurumlar vasitəsilə qiymətləndirilməsidir. M. Ehren və həmkarlarına görə (2013), xarici qiymətləndirmənin əsas üstünlüyü subyektivlik riskinin azalması və obyektiv qərarların qəbuluna şərait yaratmasıdır.

Təhsil monitorinqi – pedaqoji sistemin fəaliyyəti haqqında, onun vəziyyətinə davamlı olaraq müşahidəni təmin edən və inkişafını proqnozlaşdıran informasiyaların toplanması, saxlanması, işlənməsi və yayılması sistemidir (Sevinc Əliyeva, Məktəbin idarə edilməsinin pedaqoji, psixoloji əsasları Bakı 2022).

Monitorinq qarşıya qoyulmuş məqsədlərə nailolma prosesinin gedişatının sistemli və davamlı şəkildə izlənilməsini, habelə bu proses üzrə müvafiq məlumatların planlı şəkildə toplanmasını nəzərdə tutan idarəetmə mexanizmidir. Təhsil müəssisələrinin idarə olunmasında və təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsində etibarlı məlumat bazasının formalaşdırılması, əldə olunan məlumatların təhlili və elmi əsaslandırılmış qərarların qəbul edilməsi xüsusi əhəmiyyət daşıyır. Monitorinq nəticəsində zəruri məlumatlar toplanır, analitik təhlilə cəlb olunur, müvafiq nəticələr çıxarılır və aşkarlanmış çatışmazlıqların aradan qaldırılması məqsədilə korrektiv tədbirlər planlaşdırılaraq icra edilir. Təhsil müəssisələrində monitorinq təlim, tərbiyə, təhsil və idarəetmə proseslərini, eləcə də sinifdənkənar və məktəbdənkənar tədbirləri əhatə edən müxtəlif istiqamətlər üzrə təşkil olunur. Bu monitorinq sisteminin əsas obyektləri kimi şagird kontingenti, pedaqoji heyət, valideynlər, idarəetmə subyektləri və təlim prosesinin maddi-texniki, eləcə də metodiki təminat səviyyəsi çıxış edir.

Bu baxımdan monitorinq xarici qiymətləndirmənin metodoloji dayağı kimi çıxış edir. Xarici qiymətləndirmə çərçivəsində həyata keçirilən monitorinq yalnız məlumat toplamaqla məhdudlaşmır, eyni zamanda toplanmış məlumatların keyfiyyət təminatı məqsədləri kontekstində təh-

lilini və qərar qəbuletmə prosesinə inteqrasiyasını təmin edir. Beləliklə, monitorinq xarici qiymətləndirmənin funksional səmərəliliyini artıran əsas mexanizmlərdən biri hesab olunur.

**Xarici qiymətləndirmənin məqsədləri (normativ-hüquqi əsaslarla)**

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa əsasən təhsilin əsas məqsədi şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğun olaraq keyfiyyətli təhsilin təmin edilməsidir (maddə 4). Bu baxımdan xarici qiymətləndirmə təhsil müəssisələrinin fəaliyyətinin dövlət təhsil siyasətinə, qüvvədə olan normativ-hüquqi aktlara və dövlət təhsil standartlarına uyğunluğunun müəyyən edilməsinə yönəlmiş mühüm keyfiyyət təminatı mexanizmi kimi çıxış edir. Qanunun 29-cu maddəsində təhsilin keyfiyyətinin təmin olunmasının dövlətin əsas vəzifələrindən biri olduğu vurğulanır. Bu müddəaya uyğun olaraq xarici qiymətləndirmənin əsas məqsədləri aşağıdakılardır:

- təhsil müəssisələrinin fəaliyyətinin dövlət təhsil standartlarına və digər normativ-hüquqi sənədlərin tələblərinə uyğunluq səviyyəsinin müəyyən edilməsi;
- tədris prosesinin səmərəliliyinin və təlim nəticələrinin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi;
- idarəetmə fəaliyyətinin təşkili və maddi-texniki, maliyyə və insan resurslarından istifadənin effektivliyinin təhlil olunması;
- təhsil müəssisələrinin fəaliyyətində ictimai hesabatlılığın və şəffaflığın təmin edilməsi;
- təhsil müəssisələrinin institusional və strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.

Beləliklə, xarici qiymətləndirmə "Təhsil haqqında" Qanunun keyfiyyət, şəffaflıq və hesabatlılıqla bağlı müddəalarının praktiki icrasını təmin edən nəzarət və inkişafetdirici mexanizm kimi səciyyələndirilir.

**Xarici qiymətləndirmənin funksiyaları (qanunvericilik kontekstində)**

Təhsildə keyfiyyət təminatı sistemində xarici qiymətləndirmə bir neçə əsas funksiyanı yerinə yetirir və bu funksiyalar bilavasitə normativ-hüquqi əsaslara söykənir.

*İnkişafetdirici funksiya*

"Təhsil haqqında" Qanunun 3-cü maddəsində təhsilin fasiləsiz inkişafı və cəmiyyətin tələblərinə uyğunlaşdırılması əsas prinsip kimi müəyyən edilmişdir. Xarici qiymətləndirmə nəticəsində hazırlanmış tövsiyələr təhsil müəssisələrinin strateji inkişaf planlarının tərtib olunmasına, daxili keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

*Hesabatlılıq funksiyası*

"Təhsil haqqında" Qanunun 10-cu maddəsinə uyğun olaraq xarici qiymətləndirmə nəticələrinin ictimaiyyətə açıqlanması təhsil müəssisələrinin fəaliyyətində şəffaflığın təmin edilməsinə, cəmiyyətin təhsil sisteminə olan etimadının möhkəmləndirilməsinə və sosial məsuliyyətin artırılmasına şərait yaradır.

*Analitik funksiya*

"Təhsil haqqında" Qanunun 11-ci maddəsində isə təhsilin keyfiyyətinə nəzarətin zəruriliyi qeyd olunur. Bu kontekstdə analitik funksiya təhsil müəssisəsinin fəaliyyətinin müəyyən olunmuş meyar və indikatorlar əsasında sistemli şəkildə təhlil edilməsini, mövcud vəziyyətin güclü və zəif tərəflərinin müəyyənləşdirilməsini nəzərdə tutur.

*Tənzimləyici funksiya*

Eyni zamanda təhsil müəssisələrinin fəaliyyətində dövlət nəzarəti və hesabatlılıq "Təhsil haqqında" Qanunun 29-cu maddəsinə əsasən təmin edilməlidir. Xarici qiymətləndirmənin tənzimləyici funksiyası Qanunun məhz bu maddəsindən irəli gələrək təhsil müəssisələrinin dövlət təhsil standartlarına, təsdiq olunmuş kurikulumlara və digər normativ sənədlərə uyğunluğunun yoxlanılmasını təmin edir.

**Xarici qiymətləndirmənin formaları və üsulları (normativ yanaşma)**

Normativ-hüquqi sənədlərin tələblərinə uyğun olaraq xarici qiymətləndirmə prosesi müxtəlif forma və üsulların kompleks tətbiqi əsasında həyata keçirilir. Bu üsullara aşağıdakılar daxildir:

- dərs prosesinin müşahidəsi və dərsdinləmə;
- təhsil müəssisəsinin normativ sənədlərinin, illik fəaliyyət planlarının və hesabatlarının təhlili;
- pedaqoji heyət, idarəetmə subyektləri, şagirdlər və valideynlərlə müsahibələrin aparılması;
- sorğu və anketləşdirmə üsullarından istifadə;
- şagird nailiyyətlərinin dövlət təhsil standartları kontekstində qiymətləndirilməsi.

Elmi ədəbiyyatda da qeyd edildiyi kimi, qiymətləndirmə prosesinin etibarlılığı və obyektivliyi yalnız ayrı-ayrı üsulların tətbiqi ilə deyil, onların sistemli və qarşılıqlı əlaqədə istifadəsi ilə təmin olunur (Cohen, Manion, & Morrison, 2018).

Xarici qiymətləndirmənin təhsildə keyfiyyət təminatı sistemində rolu

Müasir təhsil sistemlərində keyfiyyətin təmin olunması ayrı-ayrı nəzarət və qiymətləndirmə mexanizmlərinin mövcudluğu ilə deyil, bu mexanizmlərin qarşılıqlı əlaqədə və vahid sistem çərçivəsində fəaliyyət göstərməsi ilə şərtlənir. Bu baxımdan xarici qiymətləndirmə təhsildə keyfiyyət təminatı sisteminin yalnız funksional elementi deyil, eyni zamanda sistemin struktur bütövlüyünü və davamlılığını təmin edən mexanizm kimi çıxış edir. Elmi ədəbiyyatda da vurğulandığı kimi, xarici qiymətləndirmə daxili keyfiyyət təminatı proseslərini istiqamətləndirən və onların effektivliyini artıran əsas amillərdən biridir (Harvey & Green, 1993; European Commission, 2015).

Xarici qiymətləndirmənin əsas təzahür istiqamətlərindən biri onun daxili keyfiyyət təminatı mexanizmlərini stimullaşdırmasıdır. Bu qiymətləndirmənin nəticələri təhsil müəssisələrində özünüqiymətləndirmə proseslərinin formal xarakter daşımamasına, obyektiv meyarlar və sübutlara əsaslanmasına şərait yaradır. OECD-nin yanaşmasına görə, xarici qiymətləndirmə daxili qiymətləndirmə mexanizmlərinin inkişafını təşviq etməklə keyfiyyət təminatının davamlılığını təmin edir (OECD, 2013). Bu proses daxili monitorinq sistemlərinin təkmilləşdirilməsinə, keyfiyyət indikatorlarının dəqiqləşdirilməsinə və təlim nəticələrinin sistemli şəkildə təhlilinə imkan yaradır (Məmmədov, 2020).

Xarici qiymətləndirmə eyni zamanda təhsil müəssisələrinin strateji planlaşdırma prosesinə mühüm təsir göstərən əsas mexanizmlərdən biridir. Qiymətləndirmə nəticəsində müəyyən edilmiş güclü və zəif tərəflər, habelə inkişaf ehtiyacları təhsil müəssisələrinin orta və uzunmüddətli inkişaf strategiyalarının formalaşdırılmasında əsas istinad mənbəyi kimi çıxış edir. Ehren və həmkarlarının tədqiqatlarında qeyd olunduğu kimi, xarici qiymətləndirmə nəticələrinin strateji qərar qəbuletmə prosesinə inteqrasiyası təhsil müəssisələrinin institusional inkişafını sürətləndirən əsas amillərdəndir (Ehren et al., 2013). Bu baxımdan xarici qiymətləndirmə yalnız

mövcud vəziyyətin diaqnostikası deyil, həm də gələcək inkişafın planlaşdırılması üçün elmi əsas rolunu oynayır.

Xarici qiymətləndirmənin digər mühüm istiqaməti təhsil müəssisələrində keyfiyyət mədəniyyətinin formalaşmasına xidmət etməsidir. Xarici qiymətləndirmə prosesi təhsilverənlər, təhsilalanlar və idarəetmə subyektləri arasında keyfiyyət anlayışına münasibətin dəyişməsinə, keyfiyyətin təmin olunmasının epizodik yoxlama tədbiri deyil, davamlı inkişaf prosesi kimi qəbul edilməsinə şərait yaradır. *European Commission* sənədlərində qeyd olunduğu kimi, keyfiyyət mədəniyyətinin formalaşması xarici qiymətləndirmə və daxili keyfiyyət təminatı mexanizmlərinin uzlaşdırılmış şəkildə fəaliyyət göstərməsi ilə mümkün olur (European Commission, 2015). Şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanan xarici qiymətləndirmə təhsil müəssisələrində məsuliyyət və kollektiv iştirak anlayışını gücləndirir (Əliyev, 2018).

Beləliklə, xarici qiymətləndirmə təhsildə keyfiyyət təminatı sistemində yalnız nəzarətedici funksiya yerinə yetirmir, eyni zamanda daxili keyfiyyət təminatını stimullaşdıran, strateji planlaşdırmanı istiqamətləndirən və keyfiyyət mədəniyyətinin formalaşmasına zəmin yaradan *sistemyaradıcı mexanizm* kimi çıxış edir. Xarici qiymətləndirmənin bu rolu təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsində və təhsil sisteminin davamlı inkişafında həlledici əhəmiyyətə malikdir (OECD, 2013; Ehren et al., 2013; Məmmədov, 2020).

**Azərbaycanda xarici qiymətləndirmənin mövcud vəziyyəti**

Azərbaycanda təhsildə xarici qiymətləndirmə mexanizmi normativ-hüquqi sənədlərdə nəzərdə tutulmuş prinsiplər əsasında təşkil edilsə də, onun real icrası institusional imkanlar və idarəetmə təcrübəsi ilə şərtlənir. Xarici qiymətləndirmə ümumtəhsil müəssisələrində əsasən məktəblərin fəaliyyətinin monitorinqi, tədris prosesinin müşahidəsi, idarəetmə sənədlərinin təhlili və pedaqoji fəaliyyətin qiymətləndirilməsi formasında həyata keçirilir (Təhsil Nazirliyi, 2020; Məmmədov, 2020). Praktikada xarici qiymətləndirmə nəticələri əsasən diaqnostik xarakter daşıyır və məktəbin mövcud vəziyyətinin müəyyənləşdirilməsi, idarəetmədə mövcud boşluqların aşkarlanması və tövsiyələrin hazırlanması məqsədi ilə istifadə olunur. Bununla yanaşı, qiymətləndirmə nəticələrinin məktəbdaxili keyfiyyət təminatı mexanizmlərinə sistemli şəkildə inteqrasiyası zəif müşahidə olunur ki, bu da qiymətləndirmənin inkişafetdirici potensialının tam reallaşmamasına səbəb olur (OECD, 2013; Ehren et al., 2013).

Hal-hazırda ölkəmizdə ümumtəhsil müəssisələrinin fəaliyyətinin xarici qiymətləndirilməsi işi Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasınnı Təhsil İnstitutu və Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) vasitəsilə həyata keçirilir. Təhsildə Keyfiyyət Təminatı Agentliyi Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılmışdır. Ümumtəhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi "TKTA Məktəblərin keyfiyyət monitorinqi çərçivəsi" əsasında həyata keçirilir. Çərçivəyə əsasən məktəb 4 istiqamət üzrə qiymətləndirilir:

— Şagird nailiyyətlərinin qiymətləndirilməsi;

— Öyrətmə və qiymətləndirmə;

— Məktəbdə dəstəkləyici mühitin (infrastruktur, mənəvi-psixoloji mühit, təhlükəsizlik) yaradılması;

— Məktəbdə idarəetmənin keyfiyyəti.

Hər bir istiqamət əsas və alt meyarlar olmaqla 5 səviyyə (əla, yaxşı, kafi, zəif və çox zəif) ilə dəyərləndirilir.

Qiymətləndirmə prosesi yekunlaşdıqdan sonra onun nəticələrinin müəllimlərin peşəkar inkişafı, məktəbin strateji planlaşdırılması və daxili monitorinq sistemlərinin təkmilləşdirilməsi üçün istifadə olunması məqsədəuyğundur.

Mövcud təcrübə göstərir ki, xarici qiymətləndirmə daxili keyfiyyət təminatı mexanizmlərinin stimullaşdırılmasına, hesabatlılığın və şəffaflığın gücləndirilməsinə müsbət təsir göstərir. Bununla yanaşı, beynəlxalq tədqiqatlarda vurğulandığı kimi, xarici qiymətləndirmənin keyfiyyətə real təsiri onun inkişafyönlü xarakter daşıması və qiymətləndirmə nəticələrinin idarəetmə qərarlarına inteqrasiyası ilə birbaşa bağlıdır (OECD, 2013; Ehren et al., 2013). Bu baxımdan Azərbaycanda xarici qiymətləndirmə təhsildə keyfiyyət təminatında mühüm rol oynayan, lakin metodoloji baxımdan daha da təkmilləşdirilməsi zəruri olan mexanizm kimi səciyyələndirilir.

**Xarici qiymətləndirmənin üstünlükləri və məhdudiyyətləri**

Xarici qiymətləndirmənin əsas üstünlükləri obyektivlik, şəffaflıq və inkişaf imkanlarının müəyyən edilməsidir. Bununla yanaşı, həddindən artıq nəzarətedici yanaşma müəllimlərin motivasiyasına mənfi təsir göstərə bilər. Buna görə də balanslaşdırılmış yanaşma vacibdir.

**Nəticə.** Aparılan təhlillər göstərir ki, xarici qiymətləndirmə təhsildə keyfiyyət təminatı sisteminin ayrılmaz hissəsidir. Səmərəli xarici qiymətləndirmə daxili qiymətləndirmə mexanizmləri ilə uzlaşdırılmalı və inkişafetdirici xarakter daşımalıdır. Beynəlxalq təcrübə göstərir ki, şəffaf və obyektiv xarici qiymətləndirmə sistemi təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

**Problemin aktuallığı.** Təhsildə keyfiyyət təminatı sisteminin səmərəliliyinin artırılması müasir təhsil siyasətinin əsas prioritetlərindəndir. Bu baxımdan xarici qiymətləndirmənin rolu və funksional imkanlarının elmi əsaslarla araşdırılması aktual elmi və praktiki əhəmiyyət daşıyır.

**Problemin elmi yeniliyi.** Məqalədə xarici qiymətləndirmə təhsildə keyfiyyət təminatı sisteminin tərkib hissəsi kimi kompleks yanaşma əsasında təhlil edilmiş, onun nəzarət funksiyası ilə yanaşı inkişafetdirici və tənzimləyici rolu əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat nəticələri təhsil müəssisələrində keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsi, xarici qiymətləndirmə nəticələrinin idarəetmə qərarlarına inteqrasiyası və metodoloji yanaşmaların təkmilləşdirilməsi baxımından praktik əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu //19 iyun 2009-cu ildə qəbul edilmişdir. – Bakı: Qanun

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // 19 yanvar 2015-ci ildə qəbul edilmişdir. - Bakı: Qanun

3. Abbasov, A. N. *Pedaqogika.* Dərs vəsaiti - Bakı: Mütərcim, – 2013 – 357 s.

4.İ brahimov F. Keyfiyyətin idarə olunmasının bəzi aspektləri barədə // – Bakı: Azərbaycan məktəbi, – 2015. №2, – s. 47–52

5. Əliyeva, S. Q. Məktəbin idarəedilməsinin pedaqoji, psixoloji əsasları. Metodik vəsait – Bakı, – 2021 – 279 s.

6. European Commission. (2015). *Quality Assurance in Education*. European Commission/EACEA/Eurydice. (2015). Assuring quality in education: Policies and approaches to school evaluation in Europe. Publications Office of the European Union. https://doi.org/10.2797/678

7. Ehren, M. C. M Impact of school inspections on improvement of schools -describing assumptions on causal mechanisms in six European countries / H. Altrichter, G. McNamara, J. O'Hara // Educational Assessment, Evaluation and Accountability, – 2013. 25(1), – s.3, 43.

8. Harvey, L. Defining quality / Green, D // *Assessment & Evaluation in Higher Education, - London: - 2006.* №18, – s.9–34

9.Cohen, L. *Research Methods in Education* / L. Manion, K. Morrison. – 2018. – 944 s.

**C.M.Abdulmanafova**

**Təhsilin keyfiyyətinin təmin olunmasında xarici qiymətləndirmənin rolu**
**Xülasə**

Dövlət, cəmiyyət və təhsilalanların təhsil sistemindən əsas gözləntisi yüksək keyfiyyətli təhsilin təmin olunmasıdır. Təhsil sahəsində həyata keçirilən islahatların başlıca məqsədi də məhz təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsinə nail olmaqdan ibarətdir. Müasir təhsil sistemlərində keyfiyyətin təmin olunmasına yönəlmiş mexanizmlər təhsilin səmərəliliyinin artırılması, şəffaflığın və hesabatlılığın möhkəmləndirilməsi, eləcə də davamlı inkişafın təmin edilməsi baxımından mühüm rol oynayır. Bu mexanizmlər sırasında xarici qiymətləndirmə təhsil müəssisələrinin fəaliyyətinə obyektiv və müstəqil yanaşmanın formalaşdırılmasında əsas vasitələrdən biri kimi çıxış edir. Məqalədə təhsildə keyfiyyət təminatı anlayışı, xarici qiymətləndirmənin mahiyyəti, funksional xüsusiyyətləri və formaları, beynəlxalq təcrübədə tətbiq mexanizmləri, habelə Azərbaycanda mövcud vəziyyət elmi-nəzəri baxımdan araşdırılır. Tədqiqatın nəticələri xarici qiymətləndirmənin yalnız nəzarət funksiyası daşımadığını, eyni zamanda təhsil müəssisələrinin inkişafına xidmət edən mühüm mexanizm olduğunu göstərir.

**Д.М.Абдулманафова**

**Роль внешней оценки в обеспечении качества образования**
**Резюме**

Главное ожидание государства, общества и учащихся от системы образования – предоставление высококачественного образования. Основная цель реформ, проводимых в сфере образования, – повышение качественных показателей образования. В современных системах образования важную роль в повышении эффективности образования, укреплении прозрачности и подотчетности, а также обеспечении устойчивого развития

играют механизмы, направленные на обеспечение качества. Среди этих механизмов внешняя оценка выступает одним из главных инструментов формирования объективного и независимого подхода к деятельности образовательных учреждений. В статье с научной и теоретической точки зрения рассматривается концепция обеспечения качества в образовании, сущность, функциональные особенности и формы внешней оценки, механизмы ее применения в международной практике, а также текущая ситуация в Азербайджане. Результаты исследования показывают, что внешняя оценка выполняет не только контрольную функцию, но и является важным механизмом, способствующим развитию образовательных учреждений.

**J.M.Abdulmanafova**

**The role of external evaluation in ensuring the quality of education**

**Summary**

The main expectation of the state, society and students from the education system is to provide high-quality education. The main goal of the reforms implemented in the field of education is to achieve an increase in the quality indicators of education. In modern education systems, mechanisms aimed at ensuring quality play an important role in increasing the efficiency of education, strengthening transparency and accountability, as well as ensuring sustainable development. Among these mechanisms, external evaluation acts as one of the main tools in the formation of an objective and independent approach to the activities of educational institutions. The article examines the concept of quality assurance in education, the essence, functional features and forms of external evaluation, application mechanisms in international practice, as well as the current situation in Azerbaijan from a scientific and theoretical perspective. The results of the study show that external evaluation does not only carry a control function, but is also an important mechanism serving the development of educational institutions.

**Redaksiyaya daxil olub:** 16.01.2026